# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**“Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 7 dekabr tarixli 260 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 7 dekabr tarixli 260 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1151; 2008, № 1, maddə 39; 2009, № 1, maddə 34; 2010, № 2, maddə 150; 2014, № 12, maddə 1664; 2015, № 2, maddə 218; 2016, № 11, maddə 1947; 2018, № 10, maddə 2162; 2019, № 12, maddə 2091) ilə təsdiq edilmiş “Karantin elan olunan ərazilərdə fitosanitar tədbirlərin aparılması xərcləri dövlət büdcəsi hesabına həyata keçirilən Hallar”da aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2-ci bənddə “xüsusi təhlükə yaradan” sözləri “və ya ölkə ərazisində ilk dəfə (yeni) aşkar edilmiş və kütləvi yayıldıqda ətraf mühit və ölkə iqtisadiyyatı üçün xüsusi təhlükə yaradan” sözləri ilə əvəz edilsin.

2. 3-cü hissənin birinci cümləsində “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi” sözləri “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi” sözləri ilə və ikinci cümləsində “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi

QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ
Daxil olma № 3-44/1-50/2023
06 yanvar 2023 il
Vərəq 1

Agentliyinə" sözləri "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə" sözləri ilə əvəz edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı
ÜMUMİ ŞÖBƏ

Bakı şəhəri, 30 dekabr 2022-ci il

№ 460

45 №-li nüsxə